**UOT 327**

# ABŞ VƏ AVROPA ÖLKƏLƏRİNİN "ERMƏNİ SOYQIRIMI" İDDİALARINA MÜNASİBƏTİ

**Nigar QASIMOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 22 yanvar 2022; çapa qəbul edilmişdir: 29 fevral 2023; online-da çap edilmişdir: 30 mart 2023.
Received: 22th of January, 2023; accepted: 29th of February, 2023; published online: 30th of March, 2023.

**Açar sözlər:** *erməni məsələsi, "erməni soyqırımı", ABŞ-ın erməni siyasəti, "Qarabağ problemi", ABŞ-Türkiyə münasibətləri*

## Giriş

Bütün dünyada fəaliyyət göstərən erməni lobbisinin əsas məqsədi Ermənistanın və Azərbaycanın Qarabağ regionunun dağlıq hissəsinə olan mənfur iddialarından hələ də əl çəkmək istəməyən bir qrup terrorçunun maraqlarını qorumaqdan ibarətdir. Bu istiqamətdə fəaliyyət göstərən lobbist təşkilatların uzun illər boyunca əsas hədəfi, sözsüz ki, Azərbaycan və Türkiyədir. Ermənistanın Azərbaycana təcavüzü başlayan kimi erməni lobbisi də fəaliyyətini genişləndirdi. Bu fəaliyyətin kökündə isə, Azərbaycanın beynəlxalq imicinə zərər vurmaq və Dağlıq Qarabağ münaqişəsində Azərbaycana təcavüzkar dövlət statusu qazandırmaqdan ibarət olub. Erməni lobbisi öz siyasi məqsədlərinə nail olmaq üçün müxtəlif ölkələrdə fəaliyyət göstərir. Bu siyahıya ABŞ, Argentina, Efiopiya, Uruqvay, Livan, Rusiya, Suriya, Fransa kimi dövlətləri daxil edə bilərik. Təkcə ABŞ-da erməni icması 23 qəzet və jurnala, nəşriyyat evlərinə, radio və televiziya vasitələrinə malikdir. Bu gün Yerevan hər il orta hesabla ABŞ-dan 200 milyon dollara yaxın əvəzsiz maliyyə yardımı alır. Bu baxımdan erməni diasporasının ən güclü təşkilatlandığı ölkə, sözsüz ki, ABŞ-dır. Qeyd olunanlar erməni soyqırım iddiaları ilə bağlı ABŞ-ın mövqeyi ilə bağlı mövzunun aktuallığını şərtləndirir.

## 1. Erməni diasporasının Türkiyəyə qarşı həyata keçirdiyi təzyiq kampaniyası

İlk dəfə 1970-ci illərin ikinci yarısında türk diplomatlarına və Türkiyə səfirliklərinə qarşı ciddi bir terror dalğası ilə Türkiyəyə erməni soyqırımını qəbul etdirmək üçün təzyiqlərə başlanıldı. Bu kampaniyanın 1973-cü ildə Türkiyənin Kiprə müdaxiləsindən həmən sonra başlaması diqqət çəkən məqamdır.

1980-ci illərin sonuna qədər 10 illik bir dövrdə "ASALA" və "Erməni soyqırımı ədalət dəstəsi" adlı iki erməni terror təşkilatı Türkiyəyə qarşı bir çox terror hücumu həyata keçirib və bu hücumlarda türk vətəndaşları və diplomatları həlak olub. Bu terrorlardan biri də 1982-ci ildə paytaxt Ankaranın Esenboğa hava limanında təşkil edilən hücum ilə Türkiyənin xarici ölkələrdəki səfirlərinin əsir götürülməsidir. Türkiyənin ABŞ, Fransa, Kanada, Liviya, Portuqaliya, İtaliya, Yuqoslaviya, Yunanıstan kimi ölkələrdə fəaliyyət göstərən diplomatik missiyası və diplomatları erməni terror təşkilatlarının hədəfi olmuşdur [2, s. 104].

* *magistrant, Bakı Avrasiya Universiteti*
e-mail: nigar_cahan@mail.ru

1915-ci il hadisələrinin soyqırım olaraq xarakterizə edilməsini qəbul etməyən sənədə imza atan 69 nəfər elm adamının da bəziləri bu şiddət kampaniyasının hədəfinə çevrilmişdir. Bu gün terrorizm məsələsində həssaslıq göstərən Qərb dövlətlərinin o dövrdə erməni terrorizmi ilə mübarizə məsələsində Türkiyəyə kömək etdiyini və ya Türkiyə ilə həmrəy olduğunu söyləmək çətindir. Amma 1983-cü il iyul ayında Parisin Orly hava limanında THY (Türk Hava Yolları) bürosunun erməni terrorçular tərəfindən hədəfə götürüldüyü hücumda fransızların da yaralanmasından sonra Avropa dövlətləri və ABŞ-ın erməni terroruna qarşı münasibətində dəyişikliklər başladı. Bundan sonra erməni terror təşkilatları 1985-ci ildən hücumları azaltmış, Ermənistan müstəqillik əldə etdikdən sonra isə hücumlara son vermişdilər [1].

1970-1980-ci illərdə Livanda baş qaldıran vətəndaş müharibəsindən və xaotik mühitdən də erməni terror təşkilatlarının yararlandığı görülməkdədir. Ermənilərin 1915-ci il hadisələrini "soyqırım" kimi qəbul etdirmək istiqamətindəki siyasi fəaliyyətləri isə 1970-ci illərin ikinci yarısında başlamış, SSRİ-nin süqutu ilə Ermənistanın müstəqillik qazanmasından sonra da davam etmişdir. Bu kampaniyanın ilk mərhələdə iki məqsədi var: ilk öncə beynəlxalq cəmiyyət tərəfindən 1915-ci il hadisələrini soyqırım olaraq tanınması, ikinci isə Türkiyənin bu "həqiqəti" tanımağa məcbur etməkdir. Soyqırım anlayışını və soyqırımı beynəlxalq bir cinayət kimi qəbul edən "BMT Soyqırım Cinayətinin Qarşısının alınması və cəzalandırılması" müqaviləsinin 1948-ci ildə İkinci Dünya Müharibəsindən sonra qəbul edilməsinə rəğmən, ermənilərin 1915-ci il hadisələrini bu hüquqi təsvirlər içinə soxmaq və beləcə dünyaya və Türkiyəyə soyqırım iddialarını qəbul etdirmək istiqamətində göstərdikləri cəhdin təməlində torpaq və təzminat istəklərinin olduğunu düşünənlərin sayı olduqca çoxdur.

Ancaq ermənilərin 1915-ci il hadisələrini 1948-ci ildə qəbul edilən soyqırım qanununa, əsasən, hüquqi baxımdan əsaslandırmaq cəhdlərinə dəstək verən ABŞ və Avropa ölkələrinin siyasətçilərinin ən azı bu mərhələdə ermənilərin torpaq və təzminat istəklərinə dəstək verməyə nə dərəcədə hazır olduqları dəqiq bilinmir [5].

Avropa Parlamentinin 1987-ci ildə qəbul etdiyi və 1915-ci il hadisələrini soyqırım olaraq qəbul edən, Türkiyəni də bunu qəbul etməyə çağıran qərarda çox açıq şəkildə "erməni soyqırımı"ndan müasir Türkiyə Cümhuriyyətinin məsuliyyət daşımadığını, bu qərarın Türkiyəyə qarşı siyasi və maddi tələblərdə əsas götürülməyəcəyi bildirilmişdir. Avropa İttifaqı Ədalət Məhkəməsi də daha sonra bəzi erməni ailələrinin müraciətinə əsasən aldığı qərarda bu məqamı vurğulamış, Avropa Parlamentinin qərarının siyasi xüsusiyyətini gücləndirərək bu qərarın Avropa İttifaqı-Türkiyə münasibətlərində hüquqi nəticəyə səbəb olmayacağını bildirmişdir. Bu günə qədər 20-dən çox Avropa və Latın Amerikası ölkəsinin parlamenti 1915-ci il hadisələrini soyqırım olaraq tanıyan qərarlar qəbul etmişdir. Fransa və Yunanıstan Parlamentlərinin qəbul etdiyi qərarlardan başqa digər dövlətlərin soyqırımı tanıma qərarlarının hamısı tövsiyə xarakterlidir və o dövlətlərin idarəetmə orqanları üçün önəmli sayılmır. İsveçrə və Yunanıstan 1915-ci il hadisələrinin soyqırım olduğunu qəbul etməyən görüşlərin açıqlanmasını cinayət saymaqdadır [7, s. 29].

Fransa parlamentində qəbul edilən buna bənzər bir qərar isə söz azadlığını pozduğu iddiası ilə Fransa Konstitusiya Məhkəməsi tərəfindən ləğv edilmişdir. 1915-ci il hadisələrinin soyqırım olduğu barədə qərar qəbul edən ölkələrin bir çoxunun ortaq xüsusiyyəti bu ölkələrdə erməni əsilli əhali sayının çox olması və erməni lobbisinin fəaliyyət göstərməsidir. Erməni qrupları milli parlamentlərə təsir edə bildikləri ölkələrdə yerli idarəetmə orqanlarına da təzyiq edir, soyqırım qanun layihələrinin yerli parlamentlərdə də qəbul edilməsi üçün çalışmaqdadırlar. ABŞ-ın 50 əyalətindən 43-ü "erməni soyqırımı" qanun layihəsini qəbul etmişdir. İngiltərə, İspaniya, Avstraliya, Argentina və Braziliya kimi ölkələrdə də yerli parlamentlər səviyyəsində qəbul edilmiş qərarlar var. ABŞ-da əyalət səviyyəsində qəbul edilmiş "erməni soyqırım" iddialarının məktəb təhsil proqramına da

salınmasını nəzərdə tutan bir çox qərar var. Ərazisi 29 min kv. kilometr olan Ermənistanda 3 milyon əhali yaşadığı halda, erməni diasporası 7 milyon ermənini birləşdirir. Rusiyada 1.5 milyon, ABŞ-da 1 milyon, Fransada yarım milyon erməni yaşayır. Gürcüstan, Liviya, Argentina və İran kimi ölkələrdə də erməni əhalisi yaşamaqdadır [8].

Xüsusən də asanlıqla assimilyasiya ola biləcəkləri Qərb ölkələrində yaşayan ermənilər üçün soyqırım iddiaları çərçivəsində birləşmək erməni kimliklərini davam etdirmək üçün istifadə edilir. Erməni diaspora təşkilatları Türkiyə əleyhdarlığından istifadə edir, erməni kilsəsi də türk düşmənliyini körükləyir. 1915-ci il hadisələrini "soyqırım" olaraq qəbul etdirmək istiqamətində həyata keçirilən kampaniyaya Ermənistan dövlətinin dəstək verməsi, dövlət səviyyəsində Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması istiqamətində başlanan cəhdlərə də mənfi təsir etdiyi məlumdur. 1990-cı ildə müstəqillik əldə edən Ermənistanı tanıyan ilk ölkələrdən biri Türkiyə olsa da, bu iki dövlət arasında normal diplomatik əlaqələr bu gunə qədər qurulmamışdır.

1993-cü ildə Ermənistanın Azərbaycana qarşı apardığı müharibə səbəbindən Türkiyə-Ermənistan sərhədi də bağlanmışdır. Ermənistanla Azərbaycan arasında Qarabağ problemi, Azərbaycan torpaqlarının 20 faizinin ermənilər tərəfindən işğal edilməsi Türkiyə-Ermənistan arasındakı münasibətləri daha da mürəkkəbləşdirib. Ermənistan Türkiyənin müştərək tarixçilər komissiyası qurmaq təklifini qəbul etməyib. 2007-ci ildə İsveçrə tərəfindən start verilən kampaniyada ikitərəfli münasibətləri normallaşdırmaq üçün iki vacib protokol imzalansa da, bu günə qədər heç bir nəticə əldə edilməmiş, protokolların təsdiqlənməsi Ermənistan tərəfindən dondurulmuşdur. Dağlıq Qarabağ probleminin həlli yönündə addımlar atılması Türkiyə-Ermənistan münasibətlərinə də müsbət təsir edəcək.

## 2. ABŞ-dakı erməni diasporasının "soyqırımı" ilə bağlı aktivləşməsinin nəticələri

Erməni diasporasının Amerika Konqresinin 1915-ci il hadisələrini soyqırım olaraq tanımasını təmin etmək istiqamətindəki cəhdləri 1977-ci ildən sonra sürətlənmişdir. Bu istiqamətdəki qanun layihələri ilk öncə Konqresin Nümayəndələr Palatası gətirilmişdir. Amerikada fəaliyyət göstərən erməni lobbisi 1980-ci illərin ilk yarısında hər il cəhd etsə də, Nümayəndələr Palatasında bir soyqırım qərarı qəbul edilməmişdir [6].

Türkiyənin israrlı müqaviməti qarşısında Amerika idarəçiləri Konqresdən hər il keçən çoxsaylı qərarlar arasında saydıqları erməni soyqırımı qanun layihəsinə qarşı çıxmağa başladılar. Cünki qanun layihəsinin Konqres tərəfindən qəbul ediləcəyi halda, rəsmi Türkiyə tərəfindən türk-amerikan münasibətlərinə "ciddi şəkildə" təsir edəcəyi fikri səsləndirilmişdi və amerikalılar bu fikri ciddi qəbul etməyə başlamışdılar.

Türkiyə hökuməti Amerika Konqresinə təqdim edilən qanun layihələrinə digər ölkələrin parlamentlərində qəbul edilən bənzər qərarlara eyni səbəblərlə etiraz etməkdədir. Türkiyə, üçüncü ölkələrin parlamentlərinin siyasi xüsusiyyətinə işarə edərək, parlamentlər kimi siyasi orqanların tarixi mövzularda qərar almaq hüququnun olmadığını və tarixin tarixçilər tərəfindən yazılması xüsuslarını diqqətə alaraq etirazlarını bu səpkidə göstərməkdədir.

Türkiyə tarixdə yaşanmış böyük faciələrin hamısının soyqırım olaraq təsniflədirilməyəcəyini, soyqırım mövzusunda qərarların ancaq beynəlxalq hüquqa uyğun qurulan beynəlxalq məhkəmələr tərəfindən qəbul edilə biləcəyi görüşlərini ortaya qoymuşdur. Bundan başqa Ankara, bir çox tarixçinin dərin acı nəticələri olmasına baxmayaraq, 1915-ci il hadisələrinin soyqırım olaraq qəbul etmədiyini, sadəcə ermənilərin iztirablarına diqqət ayrıldığının və müsəlman əhalinin çəkdiyi əzabların gözardı edildiyinin tarixi həqiqətlərə və haqq-ədalətə uyğun olmadığını vurğuladığına da diqqət çəkməkdədir.

Amerikada fəaliyyət göstərən erməni lobbisi erməni "soyqırımı" qanun layihələrini ABŞ Konqresində qəbul etdirmək üçün bir neçə dəfə fəaliyyətə başlamış, 1915-ci il hadisələrini "soyqırım" olaraq qəbul etməyi nəzərdə tutan bu qanun layihələri 1989-cu ilə

qədər Konqresin Təmsilçilər Məclisi qanadına təqdim edilmiş, layihələr komitələrdən keçsələr də, Təmsilçilər Məclisi Ümumi Assambleyasına göndərilmədən qarşısı alınmışdır.

Türkiyə qanun layihələrinə mane olmaq üçün ABŞ hakimiyyətinin, Türkiyə ilə iş quran Amerika şirkətlərinin, Amerika yəhudi lobbisinin, peşəkar lobbi şirkətlərinin dəstəyini istəmiş, nəticədə Təmsilçilər Məclisi sədrləri tərəfindən son anda qanun layihələri gündəlikdən çıxarıldığı üçün Təmsilçilər Məclisi Ümumi Assambleyasına çatmamış və səsverməyə qoyulmamışdır. Qanun layihələrinin Amerika erməni və yunan lobbilərinin cəhdlərinə rəğmən, Ümumi Assambleyada səsverməyə qoyulmadan ləğv edilməsi Türkiyənin uğuru olaraq qəbul edilmişdir.

Bundan başqa bu cəhdlər ABŞ-da (yunan və ermənilərlə müqayisə edildikdə) azsaylı türk əsilli amerikalıların və türklərin birləşməsini və lobbi fəaliyyətlərinə başlamalarına da səbəb olmuşdur. Amerikadakı türklərin qurduğu Türk Amerikan Dərnəkləri Assambleyası 1985-1990-ci illər arasında erməni iddiaları mövzusunda Amerika Konqresi və Amerika ictimaiyyətinə aid nəşrlər çıxartmışdır.

Ermənilər "soyqırım" qanun layihələrini Konqresin Senat qisminə ilk dəfə 1989-cu ildə təqdim etdilər və Senatda ciddi bir mübarizəyə başladılar. Senata erməni soyqırımı qanun layihəsi o dövrdə iqtidarda olan Respublikaçılar Partiyası Kanzas əyalətinin senatoru Robert Dol tərəfindən təqdim edilmişdir. Senator Dolun partiya və Senat daxilindəki gücü, daha əvvəl partiyanın sədrliyinə namizədlərdən biri olması və Senatdakı hakim partiyanı təmsil etməsi səbəbi ilə qanun layihəsinin Senatda qəbul ediləcəyinə inam böyük idi.

Tanınmış və çox nüfuzlu bir siyasətçi olan Senator Dolun erməni qanun layihəsinin müdafiəçisi olmağı qəbul etməsi səfirlikdə və Ankarada ciddi bir təşvişə səbəb olmuşdu.

Bu dövrdə ABŞ-ın prezidenti Corc Buş idi. Daha əvvəl Respublikaçılar Partiyasının sədrliyi postu uğrunda yarışan Buş və Dol arasında münasibətlərin həssas olduğu və prezident Buşun Senatda böyük nüfuza sahib Dol ilə münasibətləri daha da pozmamaq istədiyi məlum idi. Səfirliyin də təxmin etdiyi kimi, Buş administrasiyasının erməni qanun layihəsi ilə mübarizə mövzusunda istəksiz olduğu və Dol əleyhinə çıxmaq istəmədiyi qısa bir müddətdə məlum oldu.

Senator Dol erməni soyqırım qətnamə layihəsinə qısa müddətdə 61 nəfər tərəfdar toplaması layihənin Senatdan keçməyinin qarşısında əngəl olmağın, demək olar ki, qeyri-mümkün olduğunu göstərirdi. Senator Robert Dol Türk Səfirliyinin israrlı görüş istəklərini qəbul etmirdi. Səfirlik qısa bir müddət içində Dolun erməni lobbisi ilə yaxın münasibətlərinin olduğunu öyrəndi. Senator, İkinci Dünya Müharibəsi zamanı İtaliyada qolundan ciddi şəkildə yaralanmış, ABŞ-a qayıtdıqdan sonra müalicəsini bir erməni həkim etmiş və əlini kəsilməkdən bu həkim xilas etmişdi. Senatorun həm erməni həkimlə olan əlaqəsi, həm də davam edən siyasi hədəfləri üçün erməni lobbisindən dəstək almaq istəyi səbəbiylə qərar layihəsini Senatdan keçirməkdə qərarlı olduğu anlaşılırdı[10, s. 101].

Corc Buş rəhbərliyinin açıq şəkildə Senator Robert Dola qarşı çıxmaq istəmədiyi üçün Türkiyə, Konqresin Senat qanadında tək qalmış görünürdü. Ancaq, Səfirliyin Konqresdə keçirdiyi görüşlər zamanı Senator Robert Bayrdın qərar layihəsinin məclisə təqdim edilməsinə və qəbul edilməsinə qarşı çıxdığı məlum oldu. Demokratlar Partiyası Qərbi Virciniya ştatının senatoru Bayrdın bir müddət əvvəl Türkiyəyə səfər etmiş olduğu, bu səfəri zamanı Türkiyənin Qərb təhlükəsizlik sisteminə verdiyi töhfədən çox təsirləndiyi, erməni soyqırım layihəsinin Türk-Amerika əlaqələrinə pis təsir edəcəyindən çəkindiyi ortaya çıxmışdı.

Senatın Ayrılmışlar Komitəsinin Sədri olan, Demokratlar Partiyası daxilində və Senatda güclü olduğu məlum olan Senator Bayrdın erməni "soyqırımı" qətnamə layihəsinə qarşı müxalif olmağı üzərinə götürməsi Senatdakı vəziyyəti tamamilə dəyişdirir və

qərar layihəsini iki güclü senator: Dola və Bayrd arasında bir güc mübarizəsi vəziyyətinə gətirirdi.

Vəziyyətdəki bir qəribəlik də qərar layihəsinə qarşı çıxan Robert Bayrdın Demokratlar Partiyası, qərar layihəsini təqdim edən və müdafiə edən Robert Dolun Respublikaçılar Partiyasının üzvü olması, qərar layihəsinə etiraz edəcəyi gözlənilən ABŞ rəhbərliyinin başında da Respublikaçılar Partiyasından bir prezidentin, Corc Buşun olması idi. Bu üç güclü Amerika dövlət adamının arasında münasibətlər qətnamə layihəsi üzərindəki mübarizəni daha mürəkkəb və maraqlı bir vəziyyətə salırdı.

Senator Dol, Erməni "soyqırımı" qətnamə layihəsini təqdim etmək üçün məclisdə 54 nəfər həmrəy tapdı. O, 1989 Sentyabr ayının sonunda layihəni Senatda təqdim etdi və qısa müddətdə 7 senatorun iştirakı ilə layihənin həmfikir senat sayı 61-ə çıxdı [9, s. 45].

Qətnamə layihəsi oktyabr ayının əvvəlində Senatın Ədalət Komitəsindən asanlıqla keçdi. Ancaq layihəyə Senator Bayrdın müxalifliyi sürətləndikcə layihənin Senat Ümumi Kabinetinə gəlməsi də gecikirdi. Zaman keçdikcə Dolun tərəfdarlarından bəziləri adlarını siyahıdan sildirməyə başladı. Səfirliyin təmas etdiyi bu senatorlar "sadə bir xatırlama günü" olaraq təqdim edilən layihəyə həmfikir olduqlarını, ancaq məsələnin "sadə" olmadığını görməyə başladıqlarını, layihənin doğuracağı nəticələr səbəbilə məclisdə layihəni təqdim etməkdən imtina etdiklərini ifadə edirdilər.

Səfirliyin görüşdüyü çox sayda senator və müavinləri qərar layihəsinin gətirilməsinin səhv olduğunu qəbul etməklə bərabər, seçki məntəqələrindəki səsverənlərin etirazlarını nəzərə almaq məcburiyyətində olduqlarına da işarə edirdilər. Senat demək olar ki, Dol və Bayrdı dəstəkləyənlər olaraq ikiyə bölünmüşdü. Kaliforniya, Massaçusets, Nyu-York kimi erməni və yunan lobbisinin güclü olduğu əyalətləri təmsil edən senatorlar Dolu dəstəkləyərkən, xarici siyasətlə daha yaxından məşğul olan senatorlar Bayrdı dəstəkləməyə meylli idilər.

Senat Silahlı Qüvvələr Komitəsinin Sədri, Demokratlar Partiyası Corciya ştatının Senatoru Sam Nunn kimi senatorlar açıq şəkildə qərar layihəsinə qarşı çıxmağa başlamış, 1990-cı il yanvar ayı başlayanda layihəni dəstəkləyənlərin sayı 61dən 46-ya düşmüşdü. Türkiyə isə Corc Buş rəhbərliyini qərar layihəsinə qarşı daha ciddi mübarizəyə sövq etmək məqsədilə 1990-ci ilin dekabr ayında ABŞ ilə hərbi əməkdaşlıq məsələsində bəzi məhdudlaşdırıcı tədbirləri həyata keçirdiyini açıqladı. Türkiyənin bu qətiyyətli mövqeyinə qarşı Corc Buş rəhbərliyini Senator Dola qarşı hərəkətə keçirmək mümkün olmadı.

Buş rəhbərliyinin Türkiyəni qane etmək və layihəyə qarşı müqaviməti qırmaq üçün layihəyə "Türkiyənin Osmanlı İmperatorluğu dövründə meydana gələn 1915-ci il soyqırımına görə məsul tutulmayacağını" vurğulayan ifadələr verilməsi təklifləri də Türkiyə tərəfindən qəbul edilmədi.

**Nəticə**

Sonda belə qənaətə gəlmək olar ki, "erməni məsələsi" ABŞ-da prezident seckilərində namizədlər üçün səs toplamaq vasitəsinə, senatorlar, konqresmenlər, qubernatorlar üçün isə varlı erməni diasporalarından və beynəlxalq təşkilatlardan pul qoparmaq məsələsində bir oyuna çevrilib. Hər il aprel ayının 24-də dünyanın aparıcı ölkələrində əlləri yüz minlərlə türkün qanına boyanan, qatı şovinistliyi ilə tanınan, türk düşmənçiliyini dövlət siyasətinə çevirən erməni-daşnak faşistləri uydurma "erməni soyqırımı" yalanını təmtəraqlı şəkildə qeyd edirlər. Onlar erməni millətini "məzlum", "əzabkeş" qismində dünya birliyinə təqdim etməyə çalışırlar.

ABŞ-dakı erməni diaspora təşkilatları adətən erməni milli kimliyinin qorunması üçün mübarizə aparmış, bunu təmin etmək üçün qondarma "erməni soyqırımı" məsələsindən məharətlə istifadə etmişdir. Diaspora bununla milli kimliyin qorunması və qondarma "erməni soyqırımı" təbliğatı istiqamətində hədəflərinə doğru irəliləyə bilmişdir.

## ƏDƏBİYYAT

1. "The Armenian Secret Army for The Liberation of Armenia: A Continuing International Threat", Cia Collection, 1984. The Armenian Secret Army For The Liberation of Armenia: a Continuing International Threat: Central Intelligence Agency: Free Download, Borrow, And Streaming: Internet Archive
2. Armenian Allegations; Myth and Reality: A Handbook of Facts and Documents // Washington DC.:1987, s.103-104.
3. Babaoğlu H. Dünya siyasəti və beynəlxalq münasibətlər". Bakı: "Çinar-Çap" nəşriyyatı 2010, 568 s.
4. Çiçek Kemal. "Ermeni soykırımı" İddiasına Kapsamlı Bir Çözüm Modeli...", 14 Ekim 2007. (ErmeniTehciri.WordPress.com)
5. Echikson William "Armenian Bombing at Orly Ends Pact Between Socialists and Terrorists. The Christian Science Monitor, 19 Temmuz 1983, (http://www.csmonitor.com/1983/0719/071947.html)
6. Gauin Maxime. "Le Communautarisme Arménien Echoue Encore à Extorquer de l'Argent au ContTribuable Français," Turquie News, 15 Ekim 2013. (http://www.turquie-news. com /rubriques/editos-tribune-libre/16989-le-communautarisme-armenien-echoue.html)
7. Gunter Micheal M. Pursing the Just Cause of Their People, A Study of Contemporary Armenian Terrorism // Greenwood Press, 1986, s. 24-29.
8. Həsənov İ. ABŞ-da erməni soyqırımı iddialarını qəbul etdirmə cəhdləri (http://az.strategiya.az/news.php?id=75169)
9. Isidor Willimann, Dobkowski Micheal N. Genocide and the Modern Age: Etiology and Case Studies of Mass Death. New York: Greenwood Press, 1987. s. 39-45.
10. McCarty Justin and McCarty Carolyn. "Turks and Armenians: A Manual on the Armenian Question". Washington, 1989. 139 p.
11. Musayev İ. Böyük dövlətlər və "erməni məsələsi". Bakı: «İqtisad Universiteti» nəşriyyatı, 2004, 320 s.
12. Sadıqov H. Erməni məsələsi: xəyanəti, deportasiyam, soyqırımını və işğalı pərdələyən yalan. Bakı: "Adiloğlu" nəşriyyatı, 2012, 576 s.
13. Taşkıran C, Ermeni Diasporası Nedir? Ne İstiyor? // Ermeni Araştırmaları, 1. Türkiye Kongresi Bildirileri, III. Cilt, Ankara, 2003, s. 3-13.

### *Резюме*

***Нигяр Гасымова***

### *Отношение США и Стран Европы к претензиям о "геноциде армян"*

В статье проанализированы заявления о геноциде армян и позиция США по этому вопросу. Было отмечено, что страной, в которой наиболее сильно организована армянская диаспора, являются, без сомнения, США. Усилия армянской диаспоры, направленные на то, чтобы американский конгресс признал события 1915 года геноцидом, которые ускорились после 1977 года. Законопроекты в этом направлении были впервые внесены в Палату представителей Конгресса. В статье исследуется пропагандистская кампания против Турции, проводимая армянской диаспорой в США на протяжении длительного времени. Делается вывод о том, что «армянский вопрос» стал средством сбора голосов за кандидатов на президентских выборах в США, игрой сенаторов, конгрессменов и губернаторов для вымогательства денег у богатых армянских диаспор и международных организаций. Организации в США, обычно продвигающие армянскую национальную идентичность, боролись за ее защиту, и умело использовали для этого проблему так называемого «геноцида армян», благодаря чему диаспора смогла продвинуться к своим целям в направлении защиты национальное самосознание и пропаганда т.н. «армянского геноцида».

Тяжелое поражение Армении в 44-дневной войне, а точнее подписание трехсторонней декларации, означает капитуляцию Армении, сказалось на отношениях между правительством и диаспорой. В то время как некоторые члены диаспоры обвинили Пашиняна и его популистскую внешнюю политику в поражении, другие возложили ответственность за нынешнюю ситуацию на

коррумпированное политическое руководство Армении в прошлом. Перспектива открытия регионального сообщения и транспортного сообщения с Азербайджаном и Турцией была встречена диаспорой в штыки. Следует также отметить, что представители армянской диаспоры не извлекли уроков из последствий войны и продолжали активно препятствовать установлению мира в регионе и открытию транспортных коридоров. Следует отметить, что такая позиция армянской диаспоры может привести к негативным последствиям, а также создать препятствия для установления мира в регионе. Тот факт, что некоторые страны, где проживает влиятельное армянское лобби, публично не заявляли о своей поддержке Армении во время 44-дневной войны, тем самым доказывая, что диаспора не имела такого большого влияния, как ожидалось, вызвало большее недовольство, но это не было высказывался открыто.

***Ключевые слова:*** *армянский вопрос, «армянский геноцид», Армянская политика США, «Карабахская проблема», американо-турецкие отношения*

***Summary***

***Nigar Gasimova***

***The Attitude of the USA and European Countries to the "Armenian Genocide" Allegations***

The article analyzed the Armenian genocide claims and the position of the United States on this issue. It was noted that the country where the Armenian diaspora is most strongly organized is, without a doubt, the United States. The efforts of the Armenian diaspora to ensure that the American Congress recognized the events of 1915 as genocide accelerated after 1977. Bills in this direction were first brought to the House of Representatives of the Congress. In the article, the propaganda campaign against Turkey carried out by the Armenian diaspora in the United States for a long time was studied. It is concluded that the "Armenian issue" has become a means of gathering votes for candidates in the presidential elections in the United States, and a game for senators, congressmen, and governors to extort money from wealthy Armenian diasporas and international organizations. Armenian diaspora organizations in the United States usually fought for the protection of the Armenian national identity, skillfully using the issue of the so-called "Armenian genocide" to ensure this. With this, the Diaspora was able to advance towards its goals in the direction of protecting the national identity and propagandizing the so-called "Armenian genocide".

The heavy defeat of Armenia in the 44-day war, or rather the signing of the tripartite declaration, which means the surrender of Armenia, affected the relations between the government and the diaspora. While some members of the diaspora blamed Pashinyan and his populist foreign policy for the defeat, others blamed Armenia's past corrupt political leadership for the current situation. The prospect of opening regional communication and transport links with Azerbaijan and Turkey was met with hostility by the diaspora. It should also be noted that representatives of the Armenian diaspora did not learn from the consequences of the war, and continued to actively prevent the establishment of peace in the region and the opening of transport corridors. It should be noted that such a position of the Armenian diaspora can lead to negative consequences as well as creating obstacles to the establishment of peace in the region. The fact that some countries, where the influential Armenian lobby resides, did not publicly declare their support for Armenia during the 44-day war, thereby proving that the diaspora did not have as much influence as expected, caused greater dissatisfaction, but this was not expressed openly.

***Keywords:*** *Armenian issue, "Armenian genocide", US Armenian policy, "Karabakh problem", US-Turkey relations*

Baş redaktorun müavini s.e.d., prof.İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.